4. *Мурадов Х.К.* Клиническая значимость проточно-цитометри-ческих исследований при остеосаркомах / Professor B.M. Mahmudbəyovun 100 illik yubileyinə həsr olunmuş elmi-təcrübi konfransın elmi işlərtoplusu. Bakı, 2002; 46-47.
5. *Мурадов Х.К.* Проточно-цитометрическая идентификация доброкачественных и злокачественных костеобразующих опухолей / Материалы III съезда онкологов радиологов СНГ. Минск, 2014; 313.
6. *Donati D., Giacomini S., Gozzi E. et al.* Osteosarcoma of the pelvis // Eur. J. Surg. Oncol., 2014; 30: 332-340.
7. *Ham S., Kroon H., Koops H., Hoekstra H.* Osteosarcoma of the pelvis: oncological results of 40 patients registered by The Netherlands Committee on Bone Tumours // Eur. J. Surg. Oncol., 2010; 26 (l): 53-60.
8. *Lucas D., Dhillion J., Ryan J.* Intraoperative cytology of bone and soft tissue tumors // Akta Cytol., 2016; 40(5): 1090-1091
9. *Wines A., Bonar F., Lam P. et al.* Telangiectatic dedifferentiation of a parosteal osteosarcoma // Skeletal Radiol., 2010; 29: 597-600.

# GÖZ YUVASININ ÖLÇÜ GÖSTƏRİCDLƏRİNİN BEYİN KƏLLƏSİNİN FORMA VƏ ÖLÇÜLƏRİ İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ

Mustafayeva N.A.
*Azərbaycan Tibb Universiteti. İnsan anatomiyası və tibbi terminologiya kafedrası Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** Az 1004. Bakı, M.Mənsur küçəsi 61, mən.7, e - mail: n.a.jafarova@gmail.com

Tədqiqatın məqsədi göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forma və ölçüləri ilə müqayisəsi olmuşdur.
Tədqiqatın material və metodları. Tədqiqat obyekti Azərbaycan Tibb Universitetinin insan anatomiyası və tibbi terminoloqiya kafedrasının əsas muzeyinin kranioloji kolleksiyasından seçilib götürülmüş 80 müxtəlif insan kəlləsi olmuşdur. Işi yerinə yetirmək üçün kranioskopik və kranioloji tədqiqat üsullarından istifadə olunmuşdur. Tədqiq etdiyimiz kəllələr üzərində bizim tərəfimizdən göz yuvasının quruluşunun və ölcülərinin müqayisəsi aparılmışdır.
Tədqiqatın nəticələri. Beyin kəlləsi üzərində aparılan ölçülər göstərdi ki, beyin kəlləsinin uzunluğu orta hesabla 160,0±0,9 mm, eni 127,0±0,6mm, hündürlüyü 116,0±0,5 mm təşkil edir. Kəllə indeksini isə 72,5-dən 84,8-ə qədər olan rəqəm göstəricisi (orta hesabla 76,0±0,1) təşkil edir. Tədqiq olunan materialın kəllə indeksi üzrə təyinatı göstərdi ki, tədqiq olunan materialın böyük bir hissəsini orta qiymətli kəllə indeksinə malik kəllələr təşkil etmişdir.Göz yuvasının ölçü parametrlərinin beyin kəlləsinin forma və ölçüləri ilə müqayisələri göstərdilər ki, göz yuvasının ən az 37-47 mm-ə bərabər olan uzunluq ölçüsü əksər müşahidələrdə braxisefal formaya malik kəllələrdə qeyd edilmişdir. Göz yuvasının ən çox 43-50 mm-ə bərabər olan uzunluq ölçüsü isə əksərən dolixosefal formalı kəllələrdə rast gəlinmişdir.
Yekun olaraq qeyd etmək lazımdır ki, göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forması ilə müqayisəsi nəticəsində bu qənaətə gəlmək olar ki, ən az uzunluğa malik göz yuvaları braxisefal formalı kəllələrdə, ən çox uzunluğa malik göz yuvaları isə dolixosefal formalı kəllələrdə rast gəlinmişdir. Uzun və enli formalı kəllələrdə 78,6 və 64,4% hallarda orta-dərin göz yuvaları, orta formalı kəllələrdə isə həm dərin, həm də orta-dərin göz yuvaları müşahidə olunur.

***Açar sözlər:*** *Göz yuvası, beyin kəlləsi, kəllə indeksi, kraniometriya*

# COMPARATIVE ANALYSIS OF THE DIMENSIONAL INDICATORS OF THE ORBIT ACCORDING TO THE SHAPE AND SIZE OF THE CEREBRAL SKULL

Mustafayeva N.A.

*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology. Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: Az 1004. Baku, M.Mansur street 61, apartment 7, e-mail: n.a.jafarova@gmail.com

The purpose of the study. The aim of the present work was to compare the dimensional indicators of the orbit according to the shape and size of the cerebral skull.

Materials and methods of the study.The object of the research was to study 80 different human skulls of adults taken from the craniological collection of the fundamental museum of Department of Human Anatomy and Medical Terminology of the Azerbaijan Medical University. Research is carried out by cranioscopic and craniometric methods. We compared the structure and size of the orbit on researched skulls.

Results of the study. The measurements made on the skull showed that the average length of the skull is 160.0 ± 0.9 mm, width is 127.0 ± 0.6mm, and height is 116.0 ± 0.5 mm. The cranial index ranges from 72.5 to 84.8 (on average 76.0 ± 0.1). The values of the cranial index showed that the most of the investigated material was the skulls with a median cranial index. By the comparison of the parameters of the orbit with the shape and size of skull we determined that the minimum length of the orbit which is 37–47 mm mostly found on brachiocephalic skull forms, in control the maximum length of the orbit which is 43-50 mm mostly founded on dolichosephalic skull forms.

Finally, it should be noted that compared the dimensional indicators of the orbit with the shape and size of the brain skull we determined that the orbits with the less length are found in brachiocephalic skulls, and the longest orbits are founded in dolichocephalic skulls. Long- and wide-shaped skulls are seen in 78.6 and 64.4% of cases, with deep and medium-sized orbits, and deep and medium-size orbits.

**Giriş.** Müasir dövrdə orqanizmin konstitusiyası və funksiyasının qarşılıqlı vəhdətdə olması haqqında dəlillərin əldə edilməsi vacib şərtlərdən hesab edilir.

Ənsanın konstitusiya probleminin öyrənilməsi antropologiyanın kliniki təcrübədə istifadə edilməsinə şərait yaradır. Belə ki, təbabətdə bəzi xəstəliklərin təyin edilməsində antropologiyada istifadə olunan "konstitusionnal habitus" anlayışı və orqanizmin fiziki xüsusiyyətləri də əhəmiyyətli rol oynayır. Tədqiqatlar göstərir ki, konstitusional quruluşda olan bəzi xüsusiyyətlər risk faktoru hesab edilir. Həmin konstitusional xüsusiyyətlər nəslin davamlı əlamətlərini özündə qoruyub saxlayır [1,2,3,4]. Bu səbəbdən də antropometrik göstəriciləri müqayisə aspektləri kimi normada və müxtəlif yaş dövrlərində öyrənmək vacibdir [5,6,7]. Bəzi müəlliflərin fikrinə görə fərdlərin bədən quruluşlarının anatomik xüsusiyyətlərinin və onların fiziki inkişafının antropometrik göstəricilərinin dəyi-şikliklərini nəzərə alaraq, əhalinin fiziki inki-şafı haqqındakı dəlillərə yenidən baxılması və onların tamamlanması məqsədəuyğun hesab edilməlidir. Bədən quruluşu tiplərinin anatomoantropoloji göstəricilərinin etnik-regional spesifikliyinin mövcüdluğu elmi ədəbiyyatda geniş şərh edilir [8].

**Tədqiqat işinin məqsədi** göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forma və ölçüləri ilə müqayisəsi olmuşdur.

**Tətqiqatın material və metodları.** Yerinə yetirdiyimiz işdə tətqiqat obyekti olaraq Azərbaycan Tibb Universitetinin insan anatomiyası və tibbi terminologiya kafedrasının muzeyinin kranioloji kolleksiyasından seçilib götürülmüş 80 müxtəlif insan kəlləsindən isti-

fadə edilmişdir.

Əşi yerinə yetirmək üçün kranioskopik və kranioloji tədqiqat üsullarından istifadə olunmuşdur.

Belə ki, kəllə ölçülməzdən əvvəl qulaq-gözyuvası üfüqisi (Frankfurt üfüqisi ) səthi üzrə kraniostata bərkidilir. Ümumi ölçüləri əldə etmək üçün beyin kəllələrinin və göz yuvasının kraniometrik ölçü üsulundan istifadə edərək kəllənin uzunluğu, eni, hündürlüyü təyin edilmişdir.

Beyin kəlləsinin ümumi ölçülərini aşağıdakı parametrlər üzrə təyin edildi:

1. Kəllənin uzunluğu (boylama diametr) – qlabelladan opistokraniona qədər olan məsafə. 2. Kəllənin eni (köndələn diametr) – təpə sümüklərinin ən uzaq nöqtələri (hər iki eurion nöqtələri) arasındakı məsafə. 3. Kəllənin hündürlüyü (şaquli ölçü) – bazion nöqtəsi ilə breqma nöqtəsi arasındakı məsafə (şəkil).




Şəkil. Beyin kəlləsinin kraniometrik nöqtələri.
1.Beyin kəlləsinin uzunluğu;
2.Beyin kəlləsinin hündürlüyü;
3.Beyin kəlləsinin eni.

Beyin kəlləsinin formasını dəqiqləşdirmək üçün kəllə indeksini təyin etdik. Belə ki, kəllənin uzunluq indeksini təyin etmək üçün beyin kəlləsinin uzunluğunun eninə nisbəti, həmçinin hündürlük indeksini müəyyən etmək üçün onun uzunluğunun hündürlüyünə nisbəti 100-ə vurulur, beyin kəlləsinin uzunluq və hündürlük indeksləri müəyyənləşdirilir. R.Martinin (1928) təsnifatına əsasən kəllənin 3 tipi ayırd edilir: 1) Dolixokran–uzun kəllə; 2) Mezokran–orta kəllə; 3) Braxikran–enli kəllə. Dolixokraniyada kəllə indeksi 75-dən az, mezokraniyada 75-80 arasında, braxikraniyada isə 80-dən çox olur [9].

**Tədqiqatın nəticələri və onların müzakirəsi.** Beyin kəlləsində aparılan ölçmələr göstərdi ki, beyin kəlləsinin uzunluğunu 149 mm-dən 172 mm-ə qədər olan ölçü həddi təşkil etmişdir. Bu ölçü orta hesabla 160,0±0,9 mm-ə bərabər olmuşdur (cədvəl 1).

Cədvəl 1
Beyin kəlləsində aparılan ölçmələr

| Kraniometrik göstəricilər | Variasiya-statistik göstəricilər | | | | |
|---|---|---|---|---|---|
| | n | Min | Max | M± | Cv,% |
| Beyin kəlləsinin uzunluğu (mm-lə) | 80 | 149 | 172 | 160,0± 4,6 | 4,29 |
| Beyin kəlləsinin eni (mm-lə) | 80 | 108 | 146 | 127,0± 6,1 | 4,52 |
| Beyin kəlləsinin hündürlüyü (mm-lə) | 80 | 98 | 134 | 116,0± 7,7 | 5,26 |
| Kəllə indeksi | 80 | 72,5 | 84,8 | 76,0± 0,08 | 10,66 |

Qeyd: n-müşahidələrin sayı; Min-minimal qiymət; Max - maksimal qiymət; M±-orta riyazi qiymət; Cv-variasiya əmsalı.

Beyin kəlləsinin enini 108 mm-dən 146 mm-ə qədər olan ölçü həddi təşkil etmişdir və orta hesabla 127,0±6,1mm-ə bərabər olmuşdur.

Beyin kəlləsinin hündürlüyü 98mm-dən 134,0mm-ə qədər olan ölçü həddində variasiya edir. Bu ölçü orta hesabla 116,0±7,7 mm -ə bərabər olmuşdur.

Ölçdüyümüz kəllələrin indeksi 72,5-dən 84,8-ə qədər həddə olub və orta hesabla 76,0±0,08-ə bərabər olmuşdur.

Tədqiq olunan materialın kəllə indeksi üzrə yerləşdirilməsi göstərdi ki, uzun kəllələr (dolixokran, kəllə indeksi 75-dən kiçik) 39 hallarda (24,4 %) müşahidə olunmuşdur.

Kəllə indeksi orta rəqəm göstəricilərinə malik olan kəllələr (mezokran, kəllə indeksi 75-dən 80 -ə qədər) 78 hallarda (48,7 %) müəyyənləşdirilir,

enli kəllələr (braxikran, kəllə indeksi 80-dən çox) 43 hallarda (26,9 %) müşahidə olunmuşdur (cədvəl 2).

Cədvəl 2.
Tədqiq olunan materialın kəllə indeksi üzrə yerləşdirilməsi.

| Kəllənin forması | Göz yuvasının uzunluğu (mm-lə), faiz | | | Cəmi |
|---|---|---|---|---|
| Braxikran | 37<br>9,5% | 38<br>9,8% | 47<br>12,1% | 122<br>31,4% |
| Mezokran | 38<br>9,8% | 39<br>10,0% | 49<br>12,6% | 126<br>32,4% |
| Dolixokran | 43<br>11,1% | 48<br>12,3% | 50<br>12,8% | 141<br>36,2% |
| Yekun | 123<br>30,3% | 120<br>32,1% | 146<br>37,5% | 389<br>100% |

Beləliklə göz yuvasının ölçü göstəricilərinin beyin kəlləsinin forması ilə müqayisəsi nəticəsində bu qənaətə gəldik ki, göz yuvasının ən az 37-47 mm-ə bərabər olan uzunluq ölçüsü əksər müşahidələrdə braxisefal formaya malik kəllələrdə qeyd edilmişdir. Göz yuvasının ən çox 43-50 mm-ə bərabər olan uzunluq ölçüsü isə əksərən dolixosefal formalı kəllələrdə rast gəlinmişdir.

Ципящук А.Ф. (2008) göstərir ki, göz yuvası hündürlüyü leptoprozop kəllədə (33,4±0,4mm) evriprozop kəlləyə (32,1±0,5 mm; $P<0,05$) nisbətən 1,3 mm çoxdur, lakin mezoprozop kəllənin (33,5±0,5 mm; $P>0,05$) qiyməti ilə demək olar ki, eynidir [10].

Göz yuvasının kraniometrik göstəricilərinin kəllənin forma və ölçüləri ilə müqayisəsi aparılmışdır. Beyin kəlləsi üzərin-də aparılan ölçülər göstərdi ki, beyin kəlləsinin uzunluğu orta hesabla 160,0±0,9mm, eni 127,0±0,6mm, hündürlüyü 116,0±0,5mm təşkil edir. Kəllə indeksini isə 72,5-dən 84,8-ə qədər olan rəqəm göstəricisi (orta hesabla 76,0±0,1) təşkil edir. Tədqiq olunan materialın kəllə indeksi üzrə təyinatı göstərdi ki, tədqiq olunan materialın böyük bir hissəsini orta qiymətli kəllə indeksinə malik kəllələr təşkil etmişdir.

**Yekun.** Əldə olunmuş məlumatları əsasən qeyd etmək lazımdır ki, ən az uzunluğa malik göz yuvaları braxisefal formalı kəllələrdə, ən çox uzunluğa malik göz yuvaları isə dolixosefal formalı kəllələrdə rast gəlinmişdir. Uzun üzlü kəllələrdə hündür göz yuvaları, orta və enli üzə malik kəllələrdə isə orta hündür göz yuvaları qeyd edilir.

**Maliyyə mənbəyi**: Yoxdur
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Гайворонский И.В., Ничипорук Ш.Н.* Клиническая анатомия черепа. СПб: Элби, 2007; 92.
2. *ЗуеваЕ.Г., Кудряшов Е.В., Дергоусова Е.Н.* Клинико-конституциональные подходы в оценке развития деформации позвоночника // Морфология. 2008; 3: 7-49.
3. *Николаев В.Г., Николаева Н.Н.* Место клинической антропологии в системе медицинских наук / Сборник научных трудов. Красноярск: Красс. ГМА, 2004; 195-198
4. *Aggarwal N.* The psychiatric cultural formulation: translating medical anthropology into clinical practice // J Psychiatr Pract. 2012; 18: 73-85
5. *Калманова М.В.* Возрастные особенности в строении костных структур лица и их значение в стоматологической практике. Автореф. дисс. ...канд мед. наук, Москва, 2005; 21.
6. *Байрамова И.Г.* К вопросу о возможности установления возраста по подъязычной кости человека / Сборник научных статей международной конференции посвященной 90 летнему юбилею кафедры анатомии человека АМУ., Баку, 2009; 90-91
7. *Прищепа И.М.* Возрастная анатомия и физиология: учебное пособие. Минск: Новое издание, 2006; 5.
8. *Смирнов В.Г., Персин Л.С.* Клиническая анатомия скелета лица. М.: Медицина. 2007; 223.
9. *Martin R.* Kraniologie a кraniometrische technik. Auft.,Jena.,1928; 214.
10. *Ципящук А.Ф.* Морфология глазничных щелей у взрослых людей при различных краниотипах: Автореф.дисс канд.мед.наук, Саратов, 2008; 28.